

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ *qapısı*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 63 (21.473)

*8 aprel 2016-cı il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 7-də İran İslam Respublikasının xarici işlər naziri Məhəmməd Cavad Zərifi qəbul edib.

İran, Rusiya və Azərbaycan xarici işlər nazirləri arasında ilk görüşün Bakıda keçirilməsinin önəmini qeyd edən dövlətimizin başçısı üçtərəfli görüşün regional əməkdaşlığımızın tarixində yeni səhifə açacağına, bölgədə sülhün və sabitliyin möhkəmləndirilməsi işinə töhfə verəcəyinə əminliyini ifadə edib. Xarici işlər naziri Məhəmməd Cavad Zərifin ölkəmizə səfəri zamanı Azərbaycan ilə İran arasında siyasi, iqtisadi, təhlükəsizlik, enerji, nəqliyyat, terrorizmə qarşı mübarizə və digər sahələrdə əməkdaşlıq məsələlərinin bir daha nəzərdən keçiriləcəyinə toxunan Prezident İlham Əliyev hər iki tərəfin bu sahələrdə fikirlərinin üst-üstə düşdüyünü vurğulayıb, səfərin ikitərəfli əlaqələrimizi əhatə edən bir sıra mövzular ətrafında fikir mübadiləsi aparılması üçün yaxşı fürsət yaratdığını bildirib.

İranın xarici işlər naziri Azərbaycanın təşəbbüsü ilə Azərbaycan, İran və Rusiya prezidentlərinin razılığı əsasında həyata keçirilən üçtərəfli əməkdaşlıq formatının önəmini qeyd edib.



# Kompleks quruculuq işlərindən sonra Yarımca müasir Azərbaycan kəndinə çevrilib

Bu gün iqtisadi tərəqqi və davamlı sosial islahatlar müasir Azərbaycanın inkişaf modelinə çevrilmişdir. Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrdə dinamik inkişafa rəvac verilmiş, Azərbaycan qüdrətli dövlətə çevrilmişdir. Ölkəmizin iqtisadi siyasətinin başlıca istiqamətlərindən birini də regionların tarazlı inkişafı təşkil edir. Şəhər, rayon və kəndlər geniş quruculuq meydanına çevrilmişdir. Bu inkişaf Babək rayonunun da quruculuq xəritəsinin genişlənməsinə səbəb olmuş, rayonun Yarımca kəndində yeni sosial obyektlər tikilmişdir.

# Yarımca kənd tam orta məktəbinin binası yenidən qurulmuşdur

Ölkəmizdə insan kapitalının formalaşdırılmasına hesablanan təhsil islahatları yeni mərhələyə yüksəlmişdir. Tikilən məktəblər gənclərin hərtərəfli hazırlanmasına imkan verir. Bu tədbirlər çərçivəsində Yarımca kənd tam orta məktəbi də əsaslı yenidən qurulmuşdur.

Aprelin 7-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov məktəb binasında yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, 342 yerlik məktəb binasında şagird və müəllimlər üçün hərtərəfli şərait yaradılmış, maddi-texniki baza möhkəmləndirilmiş, 4-ü elektron lövhəli olmaqla, 19 sinif otağı, kimya-biologiya və fizika laboratoriyaları, hərbi kabinə, kompüter, müəllimlər və şahmat otaqları, kitabxana və idman zalı istifadəyə verilmişdir. Məktəbdə kitabxanaçılıq işinin müasir tələblərə uyğun təşkili







təmin edilmiş, kitabxanaya 6 mindən çox ədəbiyyat və dərslik verilmişdir.

Məktəbin kompüter otağında 19 kompüter quraşdırılmış və internetə qoşulmuşdur. Elektron lövhəli siniflərdə distant və elektron dərslərin keçirilməsi üçün lazımi şərait yaradılmış, məktəb elektron dərsliklərlə təmin edilmişdir.

Baxış zamanı muxtar respublikanın 192 ümumtəhsil məktəbi ilə "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyi arasında əlaqə yaradılmış, "Naxçıvan xanlığının yaranması və tarixi əhəmiyyəti" mövzusunda distant dərs keçirilmişdir.

Məktəbin ayrı-ayrı sinif otaqlarında, fənn kabinələrində və laboratoriyalarında müasir tədris ləvazimatları qoyulmuş, məlumat stendləri asılmışdır. Bu tədris ilində Yarımca kənd tam orta məktəbində 31 şagird birinci sinfə qəbul olunmuşdur.

Ali Məclisin Sədri dəqiq elmlərin tədrisində elektron dərsliklərdən istifadənin əhəmiyyətini qeyd etmiş, kimya, biologiya, fizika və ibtidai



sinif müəllimlərinin hazırlığına diqqət yetirilməsinin vacibliyini bildirmişdir.

Bu gün gənclərin hərbi-vətənpərvərlik ruhunda böyüdülməsi vacib məsələdir. Uşaqların erkən yaşlardan ilkin hərbi biliklərə yiyələnməsi bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Muxtar respublikada gənc nəslin hərbi-vətənpərvərlik tərbiyəsinə xüsusi diqqət yetirilir, ümumtəhsil məktəblərində hərbi kabinələr yaradılır. Məlumat verilmişdir ki, Yarımca kənd tam orta məktəbində də çağırışaqədərki hərbi hazırlıq fənninə xüsusi maraq vardır. Bu il 6 şagird Heydər Əliyev adına Hərbi Liseyə sənəd verəcəkdir. Məktəbdə hərbi kabinənin lazımi əyani vasitələrlə təmin olunması işin daha mütəşəkkil təşkilinə imkan verəcəkdir.

Ali Məclisin Sədri muxtar respublikanın ümumtəhsil məktəbləri şagirdlərinin hərbi hissələrlə və Heydər Əliyev adına Hərbi Liseylə tanışlığının təşkil edilməsi, onların hərb sənətinə marağının artırılması barədə tapşırıqlar vermişdir.

Məktəbdə gənclərin fiziki cəhətdən sağlam böyüdülməsi üçün də hərtərəfli şərait yaradılmış, idman zalı, açıq idman qurğuları və futbol meydançası istifadəyə verilmişdir.

Ali Məclisin Sədri məktəbin müəllimləri ilə görüşmüş, onları təbrik edərək demişdir: Yarımca kənd tam orta məktəbi müasir tədrisin tələbləri səviyyəsindədir. Kollektiv yaradılan şəraitdən səmərəli istifadə etməli, təhsilli və vətənpərvər gənclər hazırlanmalıdır. Gənclər o zaman dövləti və xalqı üçün yararlı olur ki, onlar təhsilli və vətənpərvər böyüdülsünlər. Ölkəmiz bu gün müharibə şəraitindədir. Torpaqlarımız işğal olunub, şəhidlər veririk. Ona görə də məktəb təhsil verməklə yanaşı, həm də vətənpərvər gənclik yetişdirməlidir. Məktəbi bitirən hər bir şagird gələcəkdə harada işləməsindən asılı olmayaraq, vətənpərvər olmalı, ölkəmizə xidmət etməlidir. Ümummilli liderimiz Heydər Əliyev də deyirdi ki, ***"Gənclərin vətənpərvərlik, Vətənə sədaqət ruhunda tərbiyə edilməsi üçün orta məktəblərdə***

*Ardı 2-ci səhifədə*

*çox iş görülməlidir”.*

Ali Məclisin Sədri demişdir: Təhsilli, vətənpərvər və fiziki cəhətdən sağlam gənclik ölkəmizin milli sərvətidir. Bu gün müəllim və şagirdlərin qarşısında bir vəzifə durur: müəllimlər yaxşı təhsil verməli, gəncləri vətənpərvər böyütməli, gənclər isə yaxşı oxumalı, özlərini gələcəyə hazırlamalıdırlar. Yarımca kənd tam orta məktəbinin nailiyyətləri qənaətləndiricidir. Ötən ilin məzunlarından 4-ü ali məktəblərə, 1-i orta ixtisas məktəbinə qəbul olunub, 2 nəfər 500-700 arasında bal toplayıb. Gələcəkdə nailiyyətlər daha da artırılmalı, məktəbdə dəqiq elmlərin tədrisinə xüsusi diqqət yetirilməlidir. Çünki ölkə iqtisadiyyatının bütün sahələrində yeni innovasiyaların tətbiqi dəqiq elmlərin şagirdlərə hərtərəfli öyrədilməsini zəruri edir. Həmçinin məktəbin idman zalından və açıq idman qurğularından səmərəli istifadə olunmalı, gənclər sağlam böyüdülməli, xüsusi istedadı və bacarığı olan uşaqlar üzə çıxarılmalı, onların dərsdənkənar fəaliyyətlərinə diqqət artırılmalıdır.

Ali Məclisin Sədri qarşıya qoyulan vəzifələrin icrasında kollektivə uğurlar arzulamışdır.

Müəllim Büllurə İbrahimova çıxış edərək demişdir: Son illər muxtar respublikanın kəndlərində kompleks quruculuq işləri aparılır, müasir tələblərə cavab verən məktəblər tikilib istifadəyə verilir. Sevinirik ki, kollektivimiz üçün də müasir tədris şəraiti yaradılmışdır. Yarımca məktəbində yeni texnologiyalar tətbiq olunmuş, sinif otaqları, laboratoriyalar və fənn kabinələri ən müasir tədris avadanlıqları ilə təmin edilmiş, zəngin kitabxana fondu yaradılmışdır. Bir sözlə, məktəbdə təlim-tərbiyə işinin günün tələblərinə uyğun təşkili üçün hərtərəfli şərait vardır. Bütün bunlar müəllimlərin məsuliyyətini daha da artırır. Söz veririk ki, bu imkanlardan lazımınca bəhrələnəcək, təhsilli, dünyagörüşlü, dilini, bayrağını, torpağını sevən, vətənpərvər və dövlətçiliyimizə sədaqətli gənclər yetişdirəcək, gələcəkdə şagirdlərimiz ali məktəblərə, xüsusi təyinatlı ali hərbi məktəblərə, Heydər Əliyev adına Hərbi Liseyə qəbul olunacaqlar.

Məktəbin həyətində də geniş abadlıq işləri aparılmış, yaşıllıqlar salınmış, istifadəyə verilən bufetdə şagirdlərin sağlam qidalanması təmin olunmuşdur.

## Yarımca Kənd Mərkəzi istifadəyə verilmişdir








Aprelin 7-də Yarımca Kənd Mərkəzinin açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış tədbirində iştirak etmişdir.

Tədbirdə Yarımca kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Əfqan Qəmbərov çıxış edərək demişdir ki, kənddə fəaliyyət göstərən dövlət orqanları bu günədək şəraiti olmayan binalarda fəaliyyət göstərirdi. Ötən ildən başlayaraq kənddə geniş quruculuq-abadlıq işləri görülmüş, müasir sosial obyektlər, o cümlədən kənd mərkəzi inşa olunmuşdur. Bu da əhaliyə göstərilən xidmətin səviyyəsini daha da yüksəldəcəkdir. Lazımi tibbi ləvazimat və dərman preparatları ilə təmin olunmuş həkim ambulatoriyası da sakinlərin sağlamlığının qorunmasında mühüm əhəmiyyətə malikdir. Əfqan Qəmbərov yaradılan şəraitə görə kənd əhalisi adından minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Yarımca kəndinin muxtar respublikanın müasir və abad yaşayış məntəqəsinə çevrildiyini bildirmiş, bu münasibətlə sakinləri təbrik edərək demişdir: Bu gün ölkəmizdə bütün sahələrin inkişafı təmin olunmuşdur. Yaşayış məntəqələrində geniş quruculuq işləri aparılır. Müasir Azərbaycan kəndinin nümunəsini Yarımca kəndinin timsalında görmək olar. Kənd abadlaşdırılmış, yeni sosial obyektlər tikilmiş, insanların məskunlaşması, rahat yaşayışı və fəaliyyəti üçün hərtərəfli şərait yaradılmışdır.

Ali Məclisin Sədri demişdir: Bu gün ölkəmizdə vacib məsələlərdən biri də kəndlərin inkişafıdır. Çünki kəndlərdə yaradılan müasir şərait kənd təsərrüfatının inkişafına geniş imkanlar açır. Kənd təsərrüfatının inkişafı isə ölkədə ərzaq təhlükəsizliyinin təmin olunmasına, xammal istehsalına, yeni sənaye müəssisələrinin yaradılmasına imkan verir. Bütün bunlar isə yeni iş yerlərinin açılması və ölkənin ümumi inkişafı deməkdir. Bu gün Yarımca kəndində insanların rahat yaşayışının təmin olunması məskunlaşmanın artmasına, torpaqlardan səmərəli istifadəyə və insanların məşğulluğunun təmin olunmasına səbəb olmuşdur. Kənddə yaradılan bu şəraitdən dövlət strukturları səmərəli istifadə etməli, tikilənlər qorunmalı, vətəndaşlara nümunəvi xidmət göstərilməlidir. Bu gün məktəb binasının, kənd və xidmət mərkəzlərinin, həkim ambulatoriyasının, yolun, poçt şöbəsinin istifadəyə verilməsi, sürətli və genişzolaqlı internetdən, radio-televiziya yayımlarından istifadə imkanlarının yaradılması insanların rahatlığının təmin olunmasına və yeni iş yerlərinin açılmasına səbəb olmuş, kəndlə şəhər arasındakı fərq aradan qaldırılmışdır. Kənddə bundan sonra da abadlıq işləri davam etdirilməli, torpaqlar əkilməli, dövlət strukturları öz üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirməlidirlər.

Ali Məclisin Sədri sakinləri bir daha təbrik etmiş, açılışı bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, üçmərtəbəli kənd mərkəzində rabitə evi, polis sahə və baytarlıq məntəqələri, kitabxana, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, klub və 50 yerlik iclas zalı yerləşir. Binanın ikinci mərtəbəsində yerləşən kitabxananın fondunda 7 min 564 kitab vardır.

Kənd təsərrüfatı muxtar respublika iqtisadiyyatının inkişafında mühüm yer tutur. Buna görə də kəndlərdə heyvandarlıq təsərrüfatlarının genişləndirilməsi diqqət mərkəzində saxlanılır. Kənd mərkəzlərində baytarlıq məntəqələrinin yaradılması və lazımi dərman preparatları ilə təmin olunması da həyata keçirilən tədbirlərin davamıdır. Yarımca kəndində də baytarlıq xidmətinin nümunəvi təşkili üçün hərtərəfli şərait yaradılmışdır.

Ali Məclisin Sədri baytarlıq tədbirlərinin vaxtlı-vaxtında həyata keçirilməsi və sağlam kənd təsərrüfatı məhsullarının istehsal olunması barədə tapşırıqlar vermişdir.

Yarımca kənd bələdiyyəsinin sədri Arif Cəfərov kəndin tarixinə nəzər salaraq inkişafın böyük məmnunluq doğurduğunu, sakinlər tərəfindən razılıqla qarşılandığını bildirmiş, fərdi təsərrüfatların genişləndirildiyini, torpaqların əkildiyini, bol məhsul istehsal edildiyini diqqətə çatdırmış və bütün bunlara görə minnətdarlıq etmişdir.

Rabitə evində 384 yerlik ATS quraşdırılmış, kəndə 1400 metr fiberoptik xətt çəkilmişdir. Hazırda kənddə 72 internet istifadəçisi vardır. Rabitə evində poçt bölməsi də fəaliyyətə başlamış, bank və poçt əməliyyatlarının yerinə yetirilməsi üçün lazımi şərait yaradılmışdır.

## Yeni həkim ambulatoriyasında səhiyyə xidməti nümunəvi təşkil olunacaqdır





Aprelin 7-də Yarımca kəndində həkim ambulatoriyası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmiş, tibbi xidmətin təşkili ilə maraqlanmışdır.

Məlumat verilmişdir ki, ikimərtəbəli ambulatoriya binasında müasir avadanlıqlarla təchiz edilmiş 12 otaq – baş həkim, doğuş, peyvənd, mama, manipulyasiya, qeydiyyat, feldşer, tibb bacısı və sanitar otaqları, aptek, stomatoloji kabinə və palata yerləşir. Həkim ambulatoriyasının istifadəyə verilməsi kənddə səhiyyə xidmətinin səviyyəsini yüksəltmişdir.

Ali Məclisin Sədri sakinlərin vaxtlı-vaxtında tibbi müayinədən keçirilməsi ilə yanaşı, səhiyyə maarifinin aparılmasının və profilaktik tədbirlərin görülməsinin də əhəmiyyətini qeyd etmiş, tibbi xidmətin təşkili ilə bağlı tapşırıqlar vermişdir.

*Ardı 3-cü səhifədə*

## Yarımcada yeni xidmət mərkəzi istifadəyə verilmişdir






Həmin gün Yarımcada yeni xidmət mərkəzi də istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov xidmət mərkəzinin açılışını bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, xidmət mərkəzində bərbərxana, qadın gözəllik salonu, ət satışı yeri, ərzaq və sənaye malları mağazaları fəaliyyət göstərir. Mərkəzdə 5 nəfər işlə təmin olunmuşdur.

Xidmət mərkəzi ilə tanışlıqdan sonra kənd sakinləri ilə görüşən Ali Məclisin Sədri demişdir ki, Yarımca kəndində görülən işlər sakinlərin rahatlığına səbəb olmuş, onların problemləri öz həllini tapmışdır. Kənd bundan sonra da abad saxlanılmalı, yaşıllaşdırma tədbirlərinə və təmizliyə diqqət yetirilməlidir. Çünki bu tədbirlər kəndin inkişafı ilə yanaşı, həm də sakinlərin sağlamlığının qorunmasına xidmət edir. Kənd əhalisi təsərrüfatlardan səmərəli istifadə etməli, torpaqlar əkilməli, bazarın tələbatına uyğun məhsullar istehsal olunmalıdır.

Sakin Vahid Vəliyev minnətdarlıq edərək demişdir: Ölkəmizin iqtisadi qüdrəti ilbəil artır. İnsanların rahatlığı üçün bütün tədbirlər görülür. Qürurverici haldır ki, bu gün muxtar respublikanın təkcə şəhərləri deyil, kəndləri də abadlaşdırılır. Ən ucqar kəndlərdə də yeni məktəblər, kənd və xidmət mərkəzləri tikilir, yollar salınır. Yarımca kəndində geniş abadlıq-quruculuq işlərinin aparılması da sakinləri sevindirir, onlar öz yurd-yuvalarında rahat və firavan yaşayırlar. Bu gün dövlətin yaratdığı şəraitdən lazımınca bəhrələnirik. Kənd əhalisi əkinçiliklə, maldarlıqla məşğuldur. İstifadəyə verilən yeni obyektləri qoruyub saxlayacaq, kəndin daha da abadlaşdırılması qayğısına qalacağıq.

* * *

Yarımca kəndinin yolları abadlaşdırılmış, 950 metrlik asfalt, 2700 metrlik çınqıl qatı verilmiş, 8 su keçidi qoyulmuş, beton kanal çəkilmişdir. Rabitə, elektrik və qaz xətləri də yenilənmiş, 1200 metr rabitə, 890 metr elektrik və yeni tikililərə isə 250 metrlik qaz xətti çəkilmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin yaradılması, Əsasnaməsi və strukturunun təsdiq edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin

### Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq, muxtar respublikada əhaliyə tibbi yardımın göstərilməsi mexanizminin müasir tələblərə uyğunlaşdırılması və icbari tibbi sığorta sisteminin tətbiqi məqsədilə **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi yaradılsın.

2. “Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Əsasnaməsi” təsdiq edilsin (əlavə olunur).

3. “Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin strukturu” təsdiq edilsin (əlavə olunur).

4. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 7 aprel 2016-cı il*

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 7 aprel tarixli Fərmanı ilə təsdiq edilmişdir***

## Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin ƏSASNAMƏSİ

### 1. Ümumi müddəalar

1.1. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi (bundan sonra – Agentlik) icbari tibbi sığortanın tətbiqini təmin edən, baza (əsas xidmətlər) zərfi çərçivəsində tibbi xidmətlərin maliyyələşdirilməsi üçün vəsaitləri özündə cəmləşdirən, səhiyyə xidmətlərinin alıcısı olan və bununla bağlı zəruri xərclərin ödənilməsini təmin edən icra hakimiyyəti orqanıdır.

1.2. Agentlik öz fəaliyyətində Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının konstitusiyalarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını və bu Əsasnaməni rəhbər tutur.

1.3. Agentlik öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət və yerli özünüidarəetmə orqanları, muxtar respublikada qeydiyyatdan keçən qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Agentliyin müstəqil balansı, istifadəsində olan dövlət əmlakı, xəzinə və bank hesabları, üzərində Dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürü, ştampları və blankları vardır.

1.5. Agentliyin saxlanma xərcləri və fəaliyyəti dövlət büdcəsinin vəsaiti, icbari tibbi sığorta haqları, büdcədənkənar vəsaitlər, kreditlər və qrantlar hesabına maliyyələşdirilir. Maliyyə ilinin sonuna Agentliyin hesabında qalan vəsait növbəti ilin xərclərinin maliyyələşdirilməsinə yönəldilir.

1.6. Agentlik Naxçıvan şəhərində yerləşir.

### 2. Agentliyin fəaliyyət istiqamətləri

2.1. Agentliyin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. icbari tibbi sığorta sahəsində dövlət siyasətinin formalaşmasında iştirak etmək və bu siyasətin həyata keçirilməsini təmin etmək;

2.1.2. icbari tibbi sığorta sahəsinin inkişafını təmin etmək;

2.1.3. tibbi xidmətlərdən istifadə edilməsində əhali üçün bərabər şərtlərin yaradılması, onun əlçatan olması, əhalinin sağlamlığının qorunması və yaxşılaşdırılması məqsədi ilə tibbi xidmətlərin keyfiyyət və səmərəliliyinin artırılması istiqamətində tədbirlər görmək.

### 3. Agentliyin vəzifələri

3.1. Bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq Agentliyin vəzifələri aşağıdakılardır:

3.1.1. icbari tibbi sığorta sahəsi üzrə dövlət proqramlarının, strategiyaların və inkişaf konsepsiyalarının həyata keçirilməsində iştirak etmək;

3.1.2. icbari tibbi sığorta proqramı çərçivəsində əhaliyə göstərilən tibbi xidmətin keyfiyyətinin yüksəldilməsi istiqamətində tədbirlər görmək;

3.1.3. icbari tibbi sığorta olunanlara icbari tibbi sığorta proqramına uyğun tibbi yardım göstərilməsi üçün tibb müəssisələri ilə müqavilələr bağlamaq;

3.1.4. icbari tibbi sığorta üzrə riskləri sığorta etdirmək üçün müraciət edən və sığorta marağı olan şəxslə icbari tibbi sığorta müqaviləsi bağlamaq;

3.1.5. sığortaolunanlara baza zərfi çərçivəsində göstərilən profilaktika, müalicə və reabilitasiya yardımının həcminin, müddətinin, keyfiyyətinin və qiymətinin tərəflərlə bağlanılmış müqavilənin şərtlərinə uyğun olmasına nəzarət etmək;

3.1.6. icbari tibbi sığorta müqaviləsinin qüvvəyə mindiyi andan sığortaolunana icbari tibbi sığorta şəhadətnaməsi vermək;

3.1.7. Agentliyin büdcəsinin layihəsini hazırlamaq və təsdiq olunmuş büdcənin icrasını təmin etmək;

3.1.8. tibb müəssisələri tərəfindən baza zərfinə daxil olan həcmdə göstərilən tibbi xidmətlərin haqqının müqavilədə nəzərdə tutulmuş qaydada və müddətdə ödənilməsini təmin etmək;

3.1.9. icbari tibbi sığorta sahəsində mütəxəssislərə təlimlər təşkil etmək;

3.1.10. sığorta olunan şəxslərin mənafeyini qorumaq;

3.1.11. dövlət büdcəsindən ayrılan vəsaitləri, büdcədənkənar vəsaitləri, icbari tibbi sığorta haqlarını və bu Əsasnamədə nəzərdə tutulmuş digər mənbələrdən daxil olan maliyyə vəsaitlərini özündə cəmləşdirmək və onlardan təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.12. icbari tibbi sığorta üzrə sığortaolunanların məlumat bankını təşkil etmək;

3.1.13. icbari tibbi sığorta sisteminin fəaliyyətinin təmin olunması üzrə metodik fəaliyyəti həyata keçirmək;

3.1.14. dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün tədbirlər görmək, habelə fəaliyyət istiqamətlərinə uyğun təhlükəsizliyi təmin etmək;

3.1.15. qanunvericiliyə uyğun olaraq mühasibat uçotunun aparılmasını, hesabat məlumatlarının toplanmasını, ümumiləşdirilməsini, dəqiqləşdirilməsini və təqdim olunmasını təşkil etmək;

3.1.16. Agentliyin fəaliyyəti ilə bağlı daxil olan ərizə və şikayətlərə baxmaq və müvafiq tədbirlər görmək;

3.1.17. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı qanunvericiliklə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yeniləşdirilməsini təmin etmək.

### 4. Agentliyin hüquqları

4.1. Agentliyin aşağıdakı hüquqları vardır:

4.1.1. tibbi xidmətlərin dəyərinin qiymətləndirilməsi üzrə baza zərfinin strukturu və onun təkmilləşdirilməsi barədə Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi və Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmaqla, təkliflər hazırlamaq;

4.1.2. tibbi sığorta müqavilələri üzrə tibbi yardım və xidmətlər göstərilməsi üçün tibb müəssisəsini seçmək;

4.1.3. tibb müəssisəsinin və (və ya) tibb işçisinin təqsiri üzündən sığortaolunana vurulmuş zərərin ödənilməsi üçün məhkəməyə müraciət etmək;

4.1.4. tibb müəssisələrinin akkreditasiyasında iştirak etmək;

4.1.5. tibb müəssisələri tərəfindən müqavilənin şərtlərinin pozulduğu hallarda tibbi xidmətlərə çəkilən xərcləri qismən ödəmək;

4.1.6. zərərin sığortaolunan tərəfindən vurulduğu hallar istisna olmaqla, vətəndaşın sağlamlığına vurulmuş zərər üçün cavabdeh olan fiziki və ya hüquqi şəxslərdən sığortaolunana göstərilən tibbi yardıma çəkilən xərclərin ödənilməsini məhkəmə qaydasında tələb etmək;

4.1.7. sığortaolunanlara göstərilən tibbi xidmətlərin həcminin və keyfiyyətinin monitorinqini həyata keçirmək;

4.1.8. sığortaolunanlara göstərilən tibbi xidmətlər üçün tibb müəssisələrinə ödənilən məbləğin əsaslılığına nəzarət etmək;

4.1.9. “Normativ hüquqi aktlar haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununa uyğun olaraq, icbari tibbi sığorta sahəsinə aid normativ hüquqi və qeyri-normativ hüquqi aktların layihələrini hazırlamaq və təqdim etmək və ya onların hazırlanmasında iştirak etmək;

4.1.10. dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə icbari tibbi sığorta sahəsi üzrə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan məlumatlar (sənədlər) almaq;

4.1.11. müstəqil ekspertləri və mütəxəssisləri qanunvericiliyə uyğun olaraq öz fəaliyyətinə cəlb etmək;

4.1.12. istifadəsində olan dövlət əmlakı barəsində qanuni hüquqlarını həyata keçirmək.

### 5. Agentliyin fəaliyyətinin təşkili

5.1. Agentliyin strukturunu Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, işçilərinin say həddini Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti müəyyən edir.

*Ardı 4-cü səhifədə*

5.2. Agentliyin fəaliyyətinə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən Agentliyin direktoru rəhbərlik edir. Agentliyin direktoru Agentliyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.3. Agentliyin direktorunun Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən müavini vardır. Agentliyin direktorunun müavini Agentliyin direktoru tərəfindən ona həvalə olunmuş vəzifələri yerinə yetirir və bunun üçün şəxsən məsuliyyət daşıyır.

5.4. Agentliyin direktoru:

5.4.1. Agentliyin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.4.2. müavinin, habelə Agentliyin digər vəzifəli şəxslərinin ştat, kadr, maliyyə və digər məsələlər üzrə səlahiyyətlərini müəyyənləşdirir və qarşılıqlı fəaliyyətini təmin edir;

5.4.3. müəyyən olunmuş struktur, əməkhaqqı fondu və işçilərin say həddi daxilində Agentliyin aparatının ştat cədvəlini və ayrılmış büdcə təxsisatı daxilində xərclər smetasını təsdiq edir;

5.4.4. Agentliyin maliyyə vəsaitinə dair sərəncam verir;

5.4.5. işçiləri vəzifəyə təyin və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;

5.4.6. Agentliyin aparatına icrası məcburi əmr və göstərişlər verir, onların icrasına nəzarəti həyata keçirir, normativ hüquqi və qeyri-normativ hüquqi aktların icrasını təşkil edir;

5.4.7. Agentliyin vəzifəli şəxslərinin qanunsuz qərarlarını ləğv edir;

5.4.8. Agentliyi təmsil edir.

5.5. Agentlik maliyyə fəaliyyəti və daxil olan vəsaitin xərclənməsi barədə rüblük və illik hesabatları Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə, Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyinə və Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyinə təqdim edir.

5.6. Agentliyin direktorunun, direktor müavininin və aparatının işçilərinin əməyinin ödənilməsi normaları və digər təminatları müvafiq olaraq Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərlərinin, onların müavinlərinin və aparatları işçilərinin əməyinin ödənilməsi normalarına və təminatlarına bərabər tutulur.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 7 aprel tarixli Fərmanı ilə təsdiq edilmişdir***

## Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin STRUKTURU

1. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin aparatı (şöbələr və sektorlar).

## Naxçıvan Muxtar Respublikasında turizmin inkişafı və perspektivləri

***Naxçıvan Dövlət Universitetinin Elmi kitabxanasında "Naxçıvan Muxtar Respublikasında turizmin inkişafı və perspektivləri" mövzusunda dəyirmi masa keçirilib.***

Tədbiri giriş sözü ilə açan ali məktəbin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov turizmin inkişafından, bu sahəyə göstərilən diqqət və qayğıdan danışıb.

Qeyd olunub ki, hazırda dünya ölkələri arasında iqtisadi əlaqələrin sürətlə inkişaf etdiyi bir dövrdə turizm xarici iqtisadi fəaliyyətin ən dinamik inkişaf edən sahələrindən biridir və bu sahənin inkişafı XX əsrin ikinci yarısından başlayaraq geniş vüsət alıb. Müstəqilliyini bərpa etdikdən sonra yeni inkişaf yoluna qədəm qoyan Azərbaycan beynəlxalq aləmə inteqrasiya prosesləri çərçivəsində dünya dövlətləri ilə iqtisadi əlaqələrini genişləndirib, ölkəmizdə turizm münasibətlərinin inkişafı istiqamətində də təqdirəlayiq işlər görülüb. Vurğulanıb ki, Azərbaycanın və Naxçıvan Muxtar Respublikasının tarixi-mədəniyyət abidələrinin, gəzməli-görməli yerlərinin reklam-təbliğat yolu ilə xarici turistlərə tanıdılması xüsusi əhəmiyyət kəsb edir. Bu istiqamətdə Turizm ixtisası üzrə təhsil alan tələbələrin üzərinə mühüm vəzifələr düşür.

Sonra Bələdiyyə və turizm kafedrasının baş müəllimi, pedaqogika üzrə fəlsəfə doktoru Günay Vəliyevanın videoslaydla mövzu ilə bağlı məruzəsi dinlənilib. Məruzəçi turist və turizm anlayışları haqqında qısa məlumat verib, Naxçıvan Muxtar Respublikasının turizm potensialından danışıb.

Məruzədə Azərbaycanın ən qədim yurd yerlərindən biri, bəşər sivilizasiyasının ilkin məskənlərindən sayılan Naxçıvanın böyük turizm potensialına malik olduğu vurğulanıb. Bildirilib ki, Naxçıvanın coğrafi mövqeyi, özünəməxsus təbiəti, fauna və florası, qədim tarixə malik mədəniyyət abidələri turizmin inkişafı üçün son dərəcə əlverişli imkan yaradır. Burada qədim dövrlərin yadigarı olan tarixi abidələr, qədim tikililər, qalalar, yaşayış yerləri və nekropollar, həmçinin 250-dən çox mineral və müalicəvi əhəmiyyətli su mənbələrinin mövcudluğu Naxçıvan torpağının analoqu olmayan turizm potensialıdır.

Bələdiyyə və turizm kafedrasının müdiri, dosent Hafiz Hüseynov mövzu ilə bağlı fikirlərini bölüşüb.

Dəyirmi masa tələbə və müəllimlərin mövzu ətrafındakı müzakirələri ilə davam etdirilib.

**Nərmin CABBAROVA**

## Sağlam həyat tərzi gələcəyin təminatıdır



*7 aprel–Ümumdünya Sağlamlıq Günü ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə "Sağlam həyat tərzi gələcəyin təminatıdır" mövzusunda tədbir keçirilib.*

Tədbirin keçirilməsində məqsəd gənclərə sağlam həyat tərzini aşılamaq və zərərli vərdişlərin törətdiyi fəsadlar haqqında ətraflı məlumat vermək idi.

Gənclərin iştirakı ilə keçirilən tədbiri komitə sədrinin müavini Aytən Məmmədova açaraq "Sağlam həyat tərzi və ailə dəyərləri" mövzusunda çıxış edib. Bildirilib ki, hər bir ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı gənclərin cəmiyyətin bütün sferalarında iştirakından, onların aparıcı qüvvəyə çevrilməsindən, eyni zamanda gənclərin sağlamlığından çox asılıdır. Məhz buna görədir ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən ölkəmizdə gənc nəslin mənəvi-ideoloji tərbiyəsinə, onların sağlamlığının qorunmasına xüsusi qayğı ilə yanaşılır.

Qeyd olunub ki, sağlam ailənin əsasını, təməlini sağlam ailə üzvləri təşkil edir. Ailə üzvləri, yəni valideynlər və övladlar fiziki cəhətdən sağlam olmalıdır. Gələcək nəslimizin sağlam olması üçün bəs gənclərin üzərinə hansı vəzifələr düşür? Gənclərimizin sağlamlıqlarının qorunması üçün, ilk növbədə, onlar sağlam həyat tərzi keçirməlidirlər.

Vurğulanıb ki, ölkəmizdə əhalinin, xüsusilə də gənclərin sağlamlığının qorunması, tibbi xidmətin keyfiyyətinin daha da yaxşılaşdırılması həyata keçirilən sosial-iqtisadi siyasətin başlıca istiqamətlərindən olaraq daim dövlətin diqqət mərkəzindədir. Son illər muxtar respublikamızda da səhiyyə sahəsində aparılan islahatlar nəticəsində əhalinin sağlamlığının qorunması istiqamətində bir sıra mühüm işlər görülüb, tibb müəssisələrinin maddi-texniki bazası əhəmiyyətli dərəcədə yaxşılaşdırılıb, yeni-yeni səhiyyə ocaqları tikilərək istifadəyə verilib.

Naxçıvan Muxtar Respublika Xəstəxanasının Konsultativ diaqnostik poliklinika şöbəsinin müdiri Güllü Kazımova "Gənclərin sağlamlığı gələcəyin etibarlı təminatıdır" mövzusunda çıxış edərək sağlam həyat tərzi ilə bağlı ətraflı məlumat verib.

Sonra tədbir iştirakçılarının sualları cavablandırılıb, müvafiq mövzuda broşürlər paylanılıb.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Naxçıvan Biznes Mərkəzində nağdsız ödənişlər və turizmlə bağlı seminar keçirilib



***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2 mart 2016-cı il tarixli Sərəncamla təsdiq etdiyi "2016-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında müasir elektron ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram"da və Naxçıvan Muxtar Respublikasında turizmin inkişafı ilə bağlı keçirilmiş müşavirədə qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar Naxçıvan Biznes Mərkəzində tədbir keçirilib. İqtisadiyyat Nazirliyinin təşkilatçılığı ilə keçirilən tədbirdə Vergilər Nazirliyinin, Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin nümayəndələri, İqtisadiyyat Nazirliyi tərəfindən hamiliyə götürülmüş ixtisaslar üzrə təhsil alan tələbələr, sənətkarlar və sahibkarlar iştirak ediblər.***

Tədbirdə İqtisadiyyat Nazirliyinin şöbə müdiri Mircavid Tağızadə çıxış edib. Bildirilib ki, özəl bölməyə, sahibkarlığa göstərilən dövlət qayğısından bəhrələnərək ayrı-ayrı sahələrdə fəaliyyət göstərən sahibkarlar təbəqəsi formalaşıb. Özəl sektorda işçilərin əməkhaqlarının nağdsız formada (ödəniş kartı ilə) ödənilməsinin əhəmiyyəti haqqında sahibkarların maarifləndirilməsi istiqamətində tədbirlər həyata keçirilib, əməkhaqqı kartlarının müəssisə və müəssisənin əməkdaşları üçün sərfəli olduğu barədə geniş məlumat verilib. Əməkhaqqı ödənişləri zamanı vaxta qənaət edilməsi, ezamiyyətdə və məzuniyyətdə olan əməkdaşların nəinki respublikamızın bütün regionlarında, hətta istənilən xarici ölkədə əməkhaqqını vaxtında alması imkanı yaranıb. Müəssisənin mühasibat və kassa prosedurlarının son dərəcə sadələşdirilməsi, plastik kart sahibləri üçün vaxt itkisinə yol vermədən bankomat vasitəsilə və ya ev şəraitində internet vasitəsilə kommunal xərclərin, ev telefonu xərclərinin, internet provayderlərinə, mobil operatorlara, kabel televiziyasına, sığorta xidmətlərinə görə və digər ödənişlərin həyata keçirilməsinə geniş imkanlar açılıb.

Qeyd olunub ki, muxtar respublikada istehsal olunan mal və məhsulların, milli dəyərləri əks etdirən əşyaların, əl işlərinin internet kataloqunun hazırlanması və elektron satışlarının təşkil edilməsi istiqamətində tədbirlər həyata keçirilir, nağdsız ödənişlərin həcminin artırılması məqsədilə kart sahibləri arasında maarifləndirici tədbirlər diqqət mərkəzində saxlanılır.

Vergilər Nazirliyinin şöbə müdiri Zahid Qənbərov, Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin nümayəndəsi Tural Şirəlizadə müzakirə olunan məsələ ətrafında çıxış edib, mövzuya uyğun olaraq təqdimat keçirilib.

Yerli istehsal məhsullarından istifadənin təşviqi, istehsalçı, topdansatış və pərakəndəsatış obyektlərinin fəaliyyətinin əlaqələndirilməsi istiqamətində görülən işlər haqqında İqtisadiyyat Nazirliyinin şöbə müdiri Namiq Əhmədov geniş məlumat verib.

"Naxçıvan Biznes Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin marketoloqu Vüsal Gülməmmədov muxtar respublikada turizm potensialının inkişafı istiqamətində görülən işlərə, sahibkarlar və sənətkarlar qarşısında duran vəzifələrə toxunub, ölkəmizi, o cümlədən muxtar respublikamızı tanıdan suvenirlərin, hədiyyəlik xatirə əşyalarının hazırlanması və satışının diqqətdə saxlanılması, turizm sahibkarlığının inkişaf etdirilməsi, turizmlə məşğul olan sahibkarlar tərəfindən bu sahə üzrə layihələrin, biznes planların hazırlanmasının və həyata keçirilməsinin vacibliyini vurğulayıb.

Sonda 2016-cı ildə qurulması prioritet hesab edilən layihələr sahibkarlara təqdim edilib.

✍ **Kərəm HƏSƏNOV**

## Yüngül atletika üzrə birincilik başa çatıb

***Naxçıvan Muxtar Respublika Stadionunda "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında Naxçıvan şəhər tam orta məktəblərinin oğlan və qız atletləri arasında yüngül atletika birinciliyi keçirilib.***

Naxçıvan Muxtar Respublikası Yüngül Atletika Federasiyası, Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi və Təhsil Şöbəsinin təşkilatçılığı ilə keçirilən yarışda 16 tam orta məktəbin komandası mübarizə aparıb.

Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov tədbiri açıq elan edərək idmançılara yarışın keçirilmə məqsədi haqqında geniş məlumat verib. Sonra Yüngül Atletika Federasiyasının sədr müavini İntiqam Rəhimov və Təhsil Şöbəsinin nümayəndəsi Ruslan Quliyev çıxış edərək idmançılara uğurlar arzulayıblar.

Beynəlxalq Atletika Federasiyasının qaydalarına uyğun keçirilən yarışda oğlanlar arasında Rüstəm Baxşıyev, Nicat Quliyev, Bəhlul Əsgərli, Səfər Tağıyev, Nihad Yusifov müvafiq olaraq 100, 200, 400, 800, 1500 metr, qızlar arasında isə Fazilə Hüseynova, Səbinə Bədəlova, Gülay Hüseynova, Zülfiyyə Mehdiyeva müvafiq olaraq 100, 200, 400, 800 metr məsafəyə qaçış üzrə qalib adını qazanıblar.

Komanda hesabında isə 10 nömrəli tam orta məktəbin komandası bütün rəqiblərini geridə qoyub. Digər iki pillədə isə 6 və 3 nömrəli tam orta məktəblərin komandaları qərarlaşıb.

Sonda yer tutan komanda və idmançılara hədiyyələr təqdim olunub.

✍ **Ceyhun MƏMMƏDOV**


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 268